**UOT**
https://doi.org/10.59849/2218-4783.2026.2.202

# NAXÇIVAN BAYATILARINDA RƏNGLƏRİN SİMVOLİK SEMANTİKASI

# THE SYMBOLIC SEMANTICS OF COLORS IN THE NAKHCHIVAN BAYATI

**Aytən CƏFƏROVA***

**XÜLASƏ**

Folklorda da rəng simvolizmi rəngin hər hansı bir obyektin və ya hadisənin mahiyyətini və emosional mənasını müəyyən etdiyi çox qədim və zəngin simvollar sistemidir. O, bir qayda olaraq, həyat, işıq, ölüm kimi təbiətin fundamental anlayışlarını əks etdirən "rəng üçlüyünə" (ağ-qırmızı-qara) əsaslanır.

Azərbaycan mədəniyyətinin rəng-simvol sistemi xalqımızın tarixi inkişafı prosesində həm təbii assosiasiyaları, həm də insanların həyatı və fəaliyyətində reallaşan ictimai əhəmiyyətli mənaları sintez edərək təşəkkül tapmışdır. Rəng simvolizmi mədəniyyətdə, psixologiyada və incəsənətdə rənglərə aid edilən və assosiasiyalara (od, günəş, su, qan) əsaslanan mənalar sistemidir. Əsas rənglər əsas emosiyaları simvollaşdırır: qırmızı – ehtiras və qəzəb, mavi – sakitlik və sədaqət, sarı – sevinc və aldatma, yaşıl – ümid və təbiət, ağ – saflıq, qara – yas. Bunlar ümumi olaraq dünyadakı rənglər sisteminin kəsb etdiyi mənalardır. Lakin Azərbaycan, bu kontekstdə də Naxçıvan folklor mühitinə məxsus örnəklər daxilində rənglərin semantik tutumu çox fərqlənir. Uğur, qələbə simvolu kimi məlum olan hər hansı bir rəngin təzad təşkil edərək ağrı-acı, qəm-qüssə bildirməsi kimi faktlar da inkar olunmur. Araşdırma obyektimiz Naxçıvan folkloruna məxsus bayatılar olduğundan rənglərin simvolluluq dərəcəsini bu örnəklər daxilində tədqiq etməyi məqsədəuyğun bildik.

**Açar sözlər:** *rənglər, ağ, qara, qırmızı, yaşıl, göy, sarı, boz rənglər, Naxçıvan folkloru, bayatılar.*

**ABSTRACT**

Color symbolism in folklore is an ancient and rich system of symbols in which color determines the essence and emotional meaning of an object or event. It is generally based on a "color triad" (white – red – black) reflecting fundamental natural concepts such as life, light, and death. The color-symbol system of Azerbaijani culture has formed through the synthesis of both natural associations and socially significant meanings realized in human life and activity throughout its historical development. Color symbolism is a system of meanings attributed to colors in culture, psychology, and art, based on associations (fire, sun, water, and blood). Basic colors symbolize primary emotions: red – passion and anger, blue – calmness and loyalty, yellow – joy and deception, green – hope and nature, white – purity, black – mourning. These are the general meanings attributed to colors in the world system. However, within Azerbaijani, and in this context, Nakhchivan folklore examples, the semantic scope of colors differs significantly. Facts such as a color traditionally known as a symbol of success and victory acquiring meanings of sorrow, grief, and mourning are also observed. Since our research focuses on Nakhchivan folklore bayati, we consider it appropriate to study the symbolic degree of colors within these examples.

**Keywords:** *colors, white, black, red, green, blue, yellow, gray colors, Nakhchivan folklore, bayati.*

## GİRİŞ

Rənglər qədim dövrlərdən hiss və duyğuları ifadə etmək və oyatmaq kimi estetik funksiyanı yerinə yetirir, həm təbii hadisələri, həm də hər bir mədəniyyət üçün vacib olan, bu və ya digər xalqın ictimai həyatında təcəssüm olunan mənaları və dəyərləri ifadə edən simvoldur. Bu haqda S.Rzasoy yazır: "...rəng ibtidai insanın ən mühüm təsnifat simvollarından biri olmuşdur. Sonralar bu ibtidai

*AMEA Naxçıvan Bölməsi, e-mail: ceferli_ayten@mail.ru
ORCID: 0000-0002-9547-3155

simvollar daha mürəkkəb simvollar üçün arxetiplərə çevrilmişdir. Rəng ibtidai dünya modelində dünya nizamının idrak şərtlərindən və nizamlayıcılarından biri kimi çıxış etmişdir" [Rzasoy, 2021: 165].

Rəng simvolikası rəngin müəyyən mənanı çatdırmaq, insan hisslərini oyatmaq və fərdi, milli, dini və digər qavrayışların özünəməxsus xüsusiyyətləri ilə müəyyən edilən assosiasiyalar yaratmaq qabiliyyətidir. İnsanlar həmişə "rənglərin dili"ni anlamağa xüsusi əhəmiyyət vermişlər ki, bu da qədim miflərdə, rəvayətlərdə, xalq nağıllarında və müxtəlif dini və mistik rituallarda öz əksini tapır. Belə ki, astrologiyada 7 rəng 7 əsas planetə uyğunlaşdırılır: qırmızı Marsın, mavi Veneranın, sarı Merkurinin, yaşıl Saturnun, bənövşəyi Yupiterin, narıncı Günəşin, bənövşəyi Ayın rəngi kimi qəbul edilmişdir. Rənglər hələ qədim zamanlardan təkcə planetləri və onların təsirini deyil, həm də insanların sosial vəziyyətini və müxtəlif psixoloji durumlarını simvolizə edirdi. Bu, müəyyən rəngdə geyimlərin seçimində, xalq deyimlərində, rituallarda və s. öz əksini tapmışdır. Müxtəlif xalqlarda rənglərin bu günə qədər gəlib çatmış özünəməxsus simvolizmi təşəkkül tapmışdır. Dünya mədəniyyətinə misilsiz töhfələr vermiş bir çox görkəmli şəxsiyyətlər rənglərin simvolikası ilə bağlı dəyərli fikirlər söyləmişlər. Rənglərin insan həyatına təsirinə diqqət yetirən ilk yazarlardan biri də XVIII alman şairi və dramaturqu İ.V.Höte olmuşdur. Onun fikrincə, incəsənətin bir elementi hesab olunan rəngdən "ali məqsədlərə dəstək üçün istifadə edilə bilər", çünki dünyanı rəngli görmək insanın ən parlaq imkanlarından biridir [Горбань, 2006: 311]. Rəng özlüyündə real dünyanın ayrı-ayrı hadisələrinin üzdə olan əlaməti və ya xəyali dünyanın hər hansı bir konstantanın fərqləndirici işarəsi olmaqla yanaşı, ətrafdakı reallığı bədii yaradıcılıqda yenidən yaratmaq vasitələrindən biri kimi qəbul edilir.

Tədqiqatçılar mədəniyyətdə rəngin üç əsas funksiyasını müəyyən edirlər: kommunikativ, simvolik və estetik [Кузнецова, 2025: 163-169]. Rəngin estetik funksiyası onun insanın estetik fəaliyyəti prosesində müəyyən hissləri ifadə etmək və oyatmaq qabiliyyətində gerçəkləşir.

Estetik fəaliyyət cəmiyyətin mədəni həyatında həlledici rol oynayır. Bu fəaliyyət növü zamanı fərdlərin sosial emosiyaların məqsədyönlü işarə-simvolik (süni) modelləşdirilməsi ilə bağlı estetik proseslərdə iştirakı vasitəsilə cəmiyyətdə sosial əhəmiyyətli emosiyaların formalaşması, inkişafı və ötürülməsi baş verir [Гей, 1975: 129].

Rəngin estetik təsirinin öyrənilməsi yalnız tədqiqatçının maraq dairəsində olan mədəni və tarixi bölgədə müəyyən bir rəngin mədəni mənalarının şərhinin əsas variantlarını özündə cəmləşdirən tarixi konteksti nəzərə almaqla mümkündür.

Rəng simvolikası günümüzdə kifayət qədər aktual tədqiqat mövzusudur. Rəng simvolikası problemi psixoloqlar, ilahiyyatçılar, filosoflar və ədəbiyyatşünaslar üçün maraq doğuran ümumi humanitar bir məsələdir. Son zamanlar müxtəlif humanitar elmlərdən biliklərin inteqrasiyasına imkan verən fənlərarası yanaşmalar təşviq edilməkdədir. Rəng simvolikası problemi məhz fənlərarası problemlərdən biri sırasındadır. Elmdə rəngin psixoloji və estetik xüsusiyyətlərini anlamaq ehtiyacı qədim ənənəyə malikdir. Məsələn, yuxarıda adını qeyd etdiyimiz İ.V.Höte rəngi təkcə fizika baxımından deyil, həm də hər bir rəngin insan psixikasına təsiri baxımından nəzərdən keçirmişdir. Dünyaya göz açandan bəri hər birimizi əhatə edən rənglərin insanın bədəninə, sinir sisteminə və psixikasına necə təsir etməsi məsələsi müasir psixologiyanın da maraq dairəsindədir. Milli şüurda rəng problemi müasir elmdə kifayət qədər ətraflı araşdırılır. İnsanda rəng qavrayışının qiymətləndirilməsi müxtəlif xalqların tarixində özünəməxsus xüsusiyyətlərə malik olan sosial-mədəni fenomen nəzərə alınmaqla öyrənilir. Hər bir xalq onun folklorunda, dinində, dilində və ədəbiyyatında əks olunmuş özünəməxsus rəng simvolikasına malikdir.

Müxtəlif dövrlərdə türk dünyasında, eləcə də türk xalqlarının mədəni düşüncəsində rənglərlə bağlı simvolik məqamlar qərb türkoloqlarının da diqqətini çəkmişdir. Dünya xalqlarının rənglərlə bağlı olan simvolik düşüncəsindən təzadlı şəkildə fərqlənən bəzi məqamlara tədqiqatçılar aydınlıq gətirməyə çalışmışdılar. O cümlədən, macar alimi prof. A.Alföldü, alman türkoloqları Annemarie von Gabain və I.Laude-Cirtautasın bu mövzu ilə bağlı tədqiqatları sözügedən məsələyə həsr olunmuş sanballı araşdırmalardır [Assman, 2001: 507-519].

Qədim insanlar üçün rənglər çox böyük mahiyyətə malik işarələr sistemi idi. Hər rəngin qədim insan üçün özünəməxsus xüsusiyyətlərə malik olduğu, bu xüsusiyyətlərin də dərin məna daşıdığı bir çox mənbələrdən məlumdur. Bunu günümüzə qədər gəlib çıxan folklor və etnoqrafik yaddaş da təsdiqləyir. Müasir dövrdə müxtəlif işarələr məcmusu daşıyan rənglərin qədimlərdə ona zidd olan mənalar sisteminə malik olduğu da danılmazdır ki, bu da müasir dövrdə folklor örnəkləri daxilində aydın şəkildə müşahidə edilir. Həm də müxtəlif dönəmlərdə eyni rəngin fərqli məna daşıması da müşahidə olunandır. Məsələn, qara rəngin müasir dövrdə yas, matəm rəngi mənasını daşıdığı, hətta bu mənanın keçən əsrdə, eləcə də əsrimizdə yalnız yas mərasimlərində istifadə olunan rəng kimi qəbul edildiyi haqqında folklor və etnoqrafiya faktları öz sözünü aydınca deməkdədir. Eyni zamanda, qara rəngin müsbət anlam daşıyan, nikbinlik ifadə edən xarakterə malik olması da inkarolunmazdır. Elə bu səbəbdəndir ki, müasir günümüzdə qara artıq öz əvvəlki semantik tutumuna – müsbət xarakterli məcmusuna qayıtmaqdadır. Bu gün bir çox rəsmi tədbirlərdə, təqdimat və iaşə obyektlərinin açılış mərasimlərində, eləcə də doğum günlərində şəxsin öz arzusundan doğaraq qara rəngli aksessuarlardan geniş istifadə olunur. Qara rəngdən təsviri sənət əsərlərində, yazılı bədii ədəbiyyatda obrazların xarakterlərinin açılması, hadisələrin təsviri və təqdimində də istifadə edildiyi məqamlar kifayət qədərdir.

Ümumiyyətlə, rənglər aləmi sirli və bir o qədər də dərin qatlardan xəbər verən işarələr sistemidir. Bu işarələr sistemi dünya xalqlarının milli təfəkküründə ümumi xüsusiyyətlərə malik olmaqla yanaşı, fərdi cəhətləri, unikal məna yükü ilə də fərqlənir. Bir xalqın təfəkküründə müəyyən bir məna ifadə edən rəng digərində tam təzadlı mənalara malikdir.

“Rənglər bəzi hallarda əşya və hadisələrin məzmununu, insanların xarakterlərini, emosiyalarını müəyyənləşdirən simvola da çevrilir. Misal üçün, bütün dünyada ağ rəng işıq, uğur, xoşbəxtlik, hətta Tanrı rəngi hesab edildiyi halda, başqa rənglərə münasibət belə deyil. Belə ki, bir çox xalqlarda sarı rəng – fəallıq, mərhəmət, şəfqət, qırmızı rəng – toplaşma, cəmləşmə, göy (mavi) rəng – qəzəb, hirs, həyəcan, etiraz simvolu kimi bilinirsə, əksər, türk xalqlarında, o sıradan Azərbaycan türklərində sarı rəng – quraqlığın, qıtlığın, xəbisliyin, paxıllığın, qırmızı rəng – dava-dalaşın, müharibənin, dəliliyin (dilimizdə “Dəli qırmızı sevər” deyimi də vardır), yaşıl rəng – bolluğun, bar-bərəkətin, mavi rəng – sevincin, şadlığın, xoş xəbərin simvolu sayılır” [Abdulla, 2007: 423].

Azərbaycan folkloru və etnoqrafiyasında da rənglərin semantikası xalqımızın qədim etnik düşüncəsi ilə sıx bağlıdır. Saylar olduğu kimi, rənglər də Azərbaycan türklərinin tam öz düşüncə fəlsəfəsi ilə əlaqəlidir. Bu düşüncənin də qaynaqlandığı mənbə bu xalqın qədim mədəniyyəti, tarixi, təbiətlə qarşılıqlı əlaqəni özündə ifadə edən mərasimlərdir. Azərbaycan türklərinin folklor aləmində rənglərin semantik izahı barədə müxtəlif dövrlərdə bir sıra alimlər, araşdırıcılar tədqiqatlar aparmış, elmi axtarışlarının nəticələrini kitab, məqalə və məruzə şəklində təqdim etmişlər. Mərhum folklorşünas Bəhlul Abdulla da Azərbaycan türklərinin folklor və etnoqrafiyasında rənglərin təqdimindəki müxtəliflikdən bəhs etmişdir. Qeyd edək ki, bu müxtəlifliyi biz Azərbaycanın regionlarında da bir çox hallarda müşahidə edə bilirik. Folklor və etnoqrafik təsəvvürlərin hər bir tarixi dövrdə müəyyən dərəcədə mühafizəkarlılqa qorunduğu Naxçıvan və onun regionlarının şifahi sözlü mədəniyyət örnəklərində rənglərin fərqli təzahürlərini izləmək mümkündür. Ümumiyyətlə, qeyd etmək mütləqdir ki, rənglərin folklor örnəkləri daxilində təqdimində təzadlı məqamlara da çox rast gəlinir, yəni rənglərin bir-birinə qarşı qoyulması məsələsi inkar edilməyən hadisədir. Məsələn, məlumdur ki, ağ rəngə təzadlı mövqedə çıxış edən qara rəngdir. Lakin bəzi ərazilərin folklor və etnoqrafik örnəklərində ağ rənglə təzadlı mövqeyə malik olan, yəni ona qarşı qoyulan rəng qırmızıdır.

**ƏSAS HİSSƏ**

Bayatılar lirik duyğuların elə bir poetik ifadəsidir ki, ilkin olaraq, sabit şəkli ilə fərqlənir. Daha sonra mövzu baxımından rəngarənglik bayatıların əsas xüsusiyyətlərindəndir. Yanaşı olaraq, etnoqrafik dəyərlərin qorunub saxlanması baxımından da bayatılar çox əhəmiyyətli folklor örnəkləridir. Pro-

fessor F.Bayat bayatılara ən uyğun tərif verərək yazır: "Mövzu baxımından bayatılar insanın dünyaya gəlişindən dünyadan gedişinə qədərki bütün həyatını anlatmaqla bərabər daha çox sevgi ağırlıqlıdır..." [Bayat, 2012: 139]. Bu və ya digər mövzuda yaranmış bayatılarda xalqın etnik təfəkkürdən doğan yanaşma və düşüncələrini əks etdirən dərin etnoqrafik dəyərləri də öz əksini tapır. O cümlədən, bayatılarda mövcud olan və erkən etnoqrafik dəyərləri ehtiva edən rəng simvolizmi daha zəngindir. Naxçıvan ərazilərindən toplanılmış bayatılar isə etnik təfəkkürü ən aydın ifadə edən mənəvi dəyər xəzinəsidir. Ümumilikdə bayatılarda dünyanın əsasında dayanan ilkin elementlərlə yanaşı sivil mədəniyyəti də ifadə edən məqamlar yetərincədir. Araşdırma mövzusu olan rənglər də bu baxımdan olduqca aktualdır. Naxçıvan folkloruna məxsus olan bayatılarda rənglər, əsasən, qara, ağ, qırmızı, yaşıl və sarı rənglər sevgi, ayrılıq, yas, ümid, paklıq, eləcə də təbiətlə əlaqələndirilir.

Qara bulud dolanar,
Dağ başına yollanar.
Mən ayrıldım yarımdan,
Ürəyimdə qan bulanar [Kazımoğlu, 2012: 262].

Örnək bayatıda qara rəng lirik qəhrəmanın ağrı-acısını aydın şəkildə ifadə edir. Həm də qara rəngin aktiv şəkildə təyinedici olduğu bulud elementi də ağrı-acı, qəm-kədərin hökmranlığını ifadə edir. "Vətənin başı üzərində qara buludlar dolanır" – cümləsində "qara bulud" bəlanın, çətinliyin, müharibə təhlükəsinin yaxınlaşdığını ifadə edən simvoldur. Bir bayatı örnəyində isə qaranın təyin etdiyi bulud elementinin balıq elementi ilə əvəzləndiyini müşahidə edirik:

Aşiqəm, qara balıq,
Ağ balıq, qara balıq.
Mən burdan gedər olsam,
Qoy qalsın xarabalıq [Kazımoğlu, 2012: 251].

Hər iki halda – qara bulud və qara balıq birləşmələrində qara rəng aşiqin, lirik qəhrəmanın daxili təlatümünün simvolu olaraq bayatı örnəyinin bədii obrazına çevrilir.

Ağ rəngin uğur, qalibiyyət, xoş həyat haqqında məlumat verən simvol olduğu məlumdur. Bayatılarda da bu məqam aydın izlənilir. Hətta ağ rəng digər uğur simvolizə edən elementlərin təyinedicisi kimi çıxış edərək bayatı örnəyində lirik qəhrəmanın xoş əhvalını poetik şəkildə ifadə edir:

Ağ örpəyə büründün,
Ay işığı göründün.
Səni gördüm bir axşam,
Könlümə nur göründün [Kazımoğlu, 2012: 65].
Və ya:
Ağ atın qulağı,
Gözləri şah bulağı.
Eşitdim yar evlənir,
Qara gəlsin duvağı [İsmayıl, 2010: 95].

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, rənglərin folklor mətnlərində kəsb etdiyi mənaların simvoliklik dərəcəsini aydınlaşdıran zaman onların dünya xalqlarının mədəniyyətindəki rolu və yerinin də nəzərə alınması əsas məsələlərdəndir. Bu ona görə mühüm əhəmiyyətə malikdir ki, eyni rəng müxtəlif mədəniyyətlərdə fərqli mənalar kəsb edə bilər. Bu baxımdan, tədqiqat zamanı rənglərin simvolik semantikasının aydınlaşdırılmasında xalqların bədii etnik təfəkküründəki simvolik rəng modellərinə də diqqət edilmişdir. Rənglərin sakral semantikasının aydınlaşdırılmasında əsas predmet Naxçıvan folklor mətnləri olduğu üçün bu mətnlərdə rəng kodunun mühüm təyinatlarına da diqqət yetirilmişdir, məsələn, *ağ bəxt, qara gün, göy çadır* və s.

Məlum olduğu kimi, rənglərin ibtidaisi – kökü olan ağ rəng, əsas etibarilə, uğur rəmzi hesab edilir. Bu mənada, dünya xalqlarında ağ rəngin sözügedən mənası daha çox müşahidə edilir. Təzadlı olsa da, ağ rəngin yas, məhrumiyyət mənası daşıyan simvol olması da inkarolunmazdır. Elə bu baxım-

dan da Naxçıvandan toplanılmış folklor mətnlərində ağ rəngin uğur, xoşbəxtlik simvolikası ilə yanaşı, yas, matəm mənası daşıması folklor mətnlərində modelləşmişdir. Toplanılan mərasim folklor mətnlərinin müşahidəsi nəticəsində qadınların yas mərasimi zamanı ağ rəngli baş örtüyündən istifadəsi və bununla özlərinin yaslı durumunu ifadə etməsi aydınlaşır. Lakin lirik növün janrlarından olan bayatı örnəklərində ağ rəngin xoş gün, xoşbəxt tale simvolu daşıdığı da inkarolunmazdır.

Naxçıvan folklor örnəkləri üzərində aparılan müşahidələrdən aydınlaşır ki, qara rəng müasir zamanda kəsb etdiyi yas, matəm xarakterinə rəğmən, mətnlərdəki mənasına əsasən uğur simvoludur. Bu örnəklərdə qara rəng böyük, bilici, başbilən, ilkin mövqedə dayananın simvolu kimi təqdim edilir. Mətnlərdə qırmızı rəng bəd ruhlardan, demonik ruhlu mifoloji obrazlardan qoruyan vasitə kimi çıxış edərək mərasimlə bağlı olan ritualların əsas simvollarındandır. Eləcə də qırmızı rəng bərəkət, çoxalma, artım simvolu kimi də qəbul edilir. Bunu Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda icra edilən “siməni” ritualı da təsdiq edir. Siməni içkisinin hazırlandığı qabın üzərinə qırmızı kəlağayının örtülməsi ilə içkinin bərəkətinin artacağına inanılır. Bununla yanaşı, “Böyük çillə” mərasimində kəsilən qarpızın içərisinin qırmızı rəngi, “Novruz” mərasimində cücərdilən səməniyə qırmızı bağın, gəlin ər evinə köçəndə onun belinə qırmızı kəlağayının bağlanması, başına məhz qırmızı alma atılması və bu kimi faktlar qırmızının mübarizə simvolu kəsb etməsi haqqında geniş məlumat verir.

Naxçıvan folklor örnəklərində yaşıl rəng yeni həyat arzusunu ifadə edən simvol kimi qəbul edilir. Bu həm də qədim insanın canlı təbiət haqqındakı etnik təsəvvürlərinin müasir dövrə gəlib çıxan ən ideal modelidir:

Bu dağı enmək olmaz,
Yaşıl geyinmək olmaz.
Hər yetənin sözüylə,
İlqardan dönmək olmaz [Kazımoğlu, 2012: 262].

Göy rəngin isə qəm-qüssə, dərd-ələm simvolu kimi tanınması Naxçıvan folklor mətnləri üçün səciyyəvidir:

Göy bağlar,
Göy bağçalar, göy bağlar.
Kimin əzizi ölər,
Yaşıl açar, göy bağlar [Kazımoğlu, 2012: 262].

Digər rənglərlə müqayisədə folklor mətnləri daxilində işlənmə tezliyi zəif olan sarı rəng də digər türk xalqlarının folklor düşüncəsi ilə eynilik təşkil edərək mənəvi və fiziki zəiflik, sarsıntı, yorğunluq, bəzən də uğursuzluq rəmzi daşımaqdadır:

Göydə dolanan bulud,
Rəngi saralan bulud.
Mən eldən aralandım,
Sən də aralan, bulud [Kazımoğlu, 2012: 260].

Naxçıvandan toplanılan folklor mətnləri daxilində işlənmə tezliyi sarı rəng qədər zəif olan rənglər sırasında mövcud olan boz rəng hirs, acıq kimi duyğuları ifadə edən simvol kimi tanınmaqdadır:

Boz duman dağdan aşar,
Gözüm yollarda yaşar.
Yar gedən gündən bəri,
Könlüm ah çəkib yaşar [Kazımoğlu, 2012: 263].

## NƏTİCƏ

Folklor mətnləri rənglərin simvolik semantikasını müəyyən etmək üçün ən yaxşı mənbələrdir. Zaman-zaman xalqın etnik düşüncəsindən irəli gələn məqamlar folklor örnəklərində daha aydın şəkildə öz təzahürünü tapır. Eləcə də dərin simvolika məcmusu olan rənglər də folklor örnəklərindən yan

keçmir. Hətta folklor mətnlərində rənglərin ibtidai semantikasının aydınlaşması üçün əlverişli elementlər də mövcuddur. Bu nöqteyi-nəzərdən, bayatılar da rənglərin yayğın şəkildə əks olunduğu söz sənəti inciləridir. Bayatılar insanın insan həyatının müxtəlif dövrlərini, yaşadığı həyatın sevinc və ağrılarının tərcümanı olduğundan onlardakı real faktlar da müqayisə etibarilə daha çoxdur. Xalq təsəvvüründən qaynaqlanan düşüncələr, eləcə də etnik təfəkkürlə bağlı olan ənənə, yaşam tərzi bayatı örnəklərində məhz rənglərin vasitəsilə daha aydın görünməkdədir.

## ƏDƏBİYYAT

Abdulla, B. (2007). Rənglər. T.Bünyadov (Red.), *Azərbaycan etnoqrafiyası* (3 cilddə, 3-cü cild). Şərq-Qərb.

Kazımoğlu, M. (Red.). (2012). *Azərbaycan folkloru antologiyası. XXIII say. Naxçıvan örnəkləri* (2-ci cild). Elm və təhsil.

Bayat, F. (2012). *Folklor dərsləri*. Elm və təhsil.

İsmayıl, M. (Red.). (2010). *El sözü, yurd yaddaşı. Folklor toplusu*. Elm.

Rzasoy, S. (2021). *Nizaminin "Yeddi gözəl" poemasında mif, folklor və təsəvvüf*. Elm və təhsil.

Assman, J. (2001). *Kültürel Bellek Eski Yüksek Kültürlerde Yazı, Hatırlama ve Politik Kimlik* (cev. Ayşe Tekin). Ayrıntı Yayınları.

Гей, Н.К. (1975). *Художественность литературы*. Поэтика. Стиль. Наука.

Горбань, Е. (2006). Познание модели мира. *Человек: философская рефлексия* [Материалы Всероссийской (с международным участием) научно-практической конференции], вып. 1 (с. 67-68). Изд-во Алт. ун-та.

Кузнецова О.В. (2025, 22 февр.). *Метаморфозы времени: о символике времени и времени в психотерапии*. https://aipp.education/articles/metamorfozy-vremeni-o-simvolike-vremeni-i-vremeni-v- psihoterapii/

*(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 26.05.2026**
**Son variant 12.06.2026**